## Taker Karlsonun Pezeşkianla tam müsahibəsi yayımlanıb

*07.07.2025*

***Pezeşkian: İsrail məni öldürməyə cəhd etdi***

Amerikalı televiziya aparıcısı Taker Karson İran prezidenti Məsud Pezeşkianla müsahibəsini dərc edib.

Cənab Karlsonun "İsrail hökuməti tərəfindən İran prezidentinə sui-qəsd cəhdi olubmu?" sualına cavab olaraq cənab Pezeşkian "Bəli, cəhd etdilər, ciddi cəhd etdilər. Amma uğursuz oldu" dedi.

Taker Karlson daha sonra soruşub: "Nəzərə alsaq ki, onlar [israillilər] bunu heç vaxt heç yerdə təsdiq etməyiblər, əminsiniz ki, "sizə sui-qəsd etmək istəyiblər?"

Cənab Pezeşkian cavab verib ki, onu öldürməyə ABŞ yox, İsrail “çalışdı və hərəkətə keçdi”. O əlavə edib ki, onların səyləri zamanı "mən bir görüşdə idim və nə edəcəyimizi müzakirə edirdik."

Cənab Pezeşkian yuxarıda qeyd edilən görüş zamanı İsrailin ərazini bombalayıb-bombalamamasına və ya iclas iştirakçılarının bombardmandan əvvəl çıxıb getmələrinə aydınlıq gətirməyib.

İran prezidenti bildiyi qədər dini qurumların heç kimə qarşı “fətva vermədiyini” və onların hökumətlə heç bir əlaqəsinin olmadığını bildirib. Daha doğrusu, dinə və din xadimlərinə qarşı təhqirləri pisləyib və qəbuledilməz hesab edib, bu fətvaların ABŞ və ya şəxsən ABŞ prezidentinə aidiyyatı olmadığını bildirib.

Bu qurumların öz xüsusi baxışları vardır və “sizi inandırıram ki, bu fətvalar heç kim üçün təhlükə deyil”.

Cənab Karson soruşub: İran nə vaxtsa ABŞ prezidentinin öldürülməsini dəstəkləyibmi?

Məsud Pezeşkian cavab verib: "Əsla yox, Netanyahunun Amerika xalqının şüurunda yaratmaq istədiyi də elə budur ki, Amerikanı bölgəyə sürükləsin və bölgədə iğtişaşlar yaratsın".

### Taker Karlsonun Pezeşkianla müsahibəsinin tam mətni

***Taker Karlson: Cənab Prezident, bu fürsətə görə təşəkkür edirəm. ABŞ və İran arasında müharibədə müvəqqəti fasilə və ya atəşkəs var. Bu müharibə necə bitər? Bunun necə bitməsini istərdiniz?***

Məsud Pezeşkian: Biz bu müharibəni heç bir şəkildə başlamamışıq və bu münaqişənin davam etməsini arzulamırıq. Əvvəldən hökumətimin əsas şüarı həmişə bu olub, ona sadiq olmuşuq və qalırıq: ölkə daxilində milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, o cümlədən qonşu dövlətlərlə və dünyanın bütün xalqları ilə davamlı sülh və əmin-amanlığın, dərin dostluğun möhkəmləndirilməsi.

***Taker Karlson: Prezident Donald Tramp deyib ki, ABŞ sizin zənginləşdirmə obyektinizi bombalayıb, çünki İran nüvə proqramından əl çəkməyəcək. Və İran bu proqramdan əl çəkməyincə sülh olmayacaq. Sülh müqabilində nüvə proqramınızdan imtina etməyə hazırsınızmı?***

Məsud Pezeşkian: İndi həqiqətən nə baş verdiyini izah etmək istəyirəm. Məhz Netanyahu 1984-cü ildən bəri ictimaiyyətin və siyasətçilərin beynində İranın nüvə bombası əldə etmək istədiyi barədə tamamilə yanlış təsəvvür yaradıb O, ardıcıl olaraq İranın keçmişdə nüvə bombası yaratmağa çalışdığını təlqin edirdi. O, bu fikri ABŞ-ın o vaxtkı prezidentlərinin beyninə yerləşdirdi və onları bu yalana inanmağa vadar etdi. Ancaq danılmaz həqiqət budur ki, biz heç vaxt - nə keçmişdə, nə indi, nə də gələcəkdə nüvə bombası yaratmağa çalışmamışıq. Çünki bu yanaşma kökündən qəbuledilməzdir və İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah həzrətlərinin verdiyi dini hökm və fətva ilə tamamilə ziddiyyət təşkil edir. Ona görə də bizim dini baxımdan nüvə bombasının arxasınca getməyimiz caiz deyil. Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlığımız həmişə davam edib. Onlar diqqətli və davamlı yoxlamalar vasitəsilə fəaliyyətimizin dinc xarakter daşıdığını təsdiqləyiblər. Amma təəssüf ki, bu şəffaf əməkdaşlıq nüvə obyektlərimizə qanunsuz və təxribat hücumları nəticəsində pozuldu.

***Taker Karlson: Deyilənə görə, Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlığı dayandırmısınız. Sizcə yoxlamaların başqa bir yolu varmı? Və başqa ölkələrə nüvə silahının inkişafını yoxlamağa icazə verərdinizmi?***

Məsud Pezeşkian: Cənab Karlson, mən sizin diqqətinizi bir fakta cəlb etmək istərdim ki, biz ABŞ-la danışıqların tam ortasında idik. ABŞ prezidenti bizi sülh danışıqlarına dəvət etdi və bizə dedilər ki, nə qədər ki, biz [ABŞ] İsrailin bizə [İrana] hücum etməsinə icazə verməsək, onlar bizə [İrana] hücum etməyəcəklər. Tezliklə danışıqların növbəti raundunu keçirməli idik. Amma ortada İsrail danışıqlar masasını tərk etdi. Bu baş verəndə biz masa arxasında idik. Onlar diplomatiyanı məhv etdilər. Bununla belə sualınızı cavablandırım: **Biz nüvə proqramımızın monitorinqi və yoxlanılması ilə bağlı ciddi və konstruktiv müzakirələr aparmağa tam hazırıq**. Biz beynəlxalq monitorinqdən heç vaxt çəkinməmişik. Təəssüf ki, ABŞ-ın qeyri-qanuni hücumları nəticəsində avadanlıqlarımıza düzəlməz ziyan dəyib və hazırda bəzi obyektlərə daxil olmaq və yoxlamaq mümkün deyil. Nə qədər ziyan dəydiyini nəzərdən keçirməliyik ki, yenidənqurma və monitorinq üçün zəruri tədbirləri icra edə bilək.

***Taker Karlson: MAQATE-nin İrana casusluq etdiyinə və İsrailə məlumat verdiyinə inandığınız barədə məlumatlar var. Buna inanirsınızmı? Əgər belədirsə, dünyaya bəyan edə biləcəyiniz hər hansı bir sübutunuz varmı?***

Məsud Pezeşkian: Bəli, biz agentliyin fəaliyyətinə bir qədər şübhə ilə yanaşdıq, çünki İsrailin yoxlamalar vasitəsilə məlumat əldə edə biləcəyini başa düşdük. Amma bu, agentliyin İranda fəaliyyət göstərməsinə mane olmadı. Onların həmişə tam çıxışı olub. MAQATE-nin son hesabatı elə qurulmuşdu ki, İsrailə bizim obyektlərimizə hücum etmək

üçün bəhanə verdi. Və hətta o zaman da MAQATE bu hücumları pisləyə bilmədi. Bu, İran ictimai rəyində geniş inamsızlığa səbəb olub.

***Taker Karlson: Diplomatiyanı bərpa etməyə hazırsınız və hansı razılaşmanı qəbul edəcəyinizi deyə bilərsinizmi?***

Məsud Pezeşkian: İnanıram ki, biz ABŞ ilə fikir ayrılıqlarımızı sülh yolu ilə, dialoq və konstruktiv danışıqlar yolu ilə həll edə bilərik. Biz millətimizin beynəlxalq hüquqa əsaslanan qanuni hüquqlarının həyata keçirilməsini tələb edirik. Amma dediyim kimi, Netanyahu diplomatik səyləri məhv etdi. O, bölgəyə iğtişaşlar gətirdi. Biz həmişə sülh və əmin-amanlıq istəyirik. Amma bununla yanaşı, xalqımızın da öz ölkəsini müdafiə etmək üçün kifayət qədər iradəsi, bacarığı var. Mən qəti şəkildə inanıram ki, ABŞ prezidenti dünyanı sülhə və ya sonsuz müharibələrə apara bilər.

***Taker Karlson: ABŞ-la, Stiv Vitkoff və ya başqa bir nümayəndə ilə yenidən danışıqlara başlamaq planınız varmı? Yoxdursa, sizcə nə baş verəcək?***

Məsud Pezeşkian: Biz danışıqlara qayıtmaq üçün bir problem görmürük. Amma bundan əvvəl sizə xatırlatmalıyam ki, sionist rejimin, yəni İsrailin cinayətləri təkcə mənim ölkəmə qarşı deyil, bütün regiona qarşı baş verib. Biz indi xalqımıza təsir edən ciddi böhranla üz-üzəyik və biz onu tez bir zamanda aradan qaldırmalıyıq. Komandirlərimiz mülki şəxslər idi. Evlərində, ailələri ilə birlikdə dinc şəraitdə gecələyirdilər... amma öldürüldülər. Bu hərəkət açıq şəkildə beynəlxalq hüquqa görə hərbi cinayətdir, çünki onlar iş başında deyildilər. Aparıcı alimlərimiz də arvadları və uşaqları, hətta hamilə qadınlar və günahsız uşaqlarla birlikdə vəhşicəsinə qətlə yetirildi. Sadəcə bir nəfəri öldürmək üçün bütöv bir bina dağıdıldı, onlarla insan öldürüldü. Dediyim kimi, biz bu böhrandan çıxmalıyıq.

Danışıqların bərpası üçün əsas şərt var. Bütün bu yaramaz davranışlardan sonra biz yenidən Amerikaya necə güvənə bilərik? Danışıqlar zamanı İsrailin bir daha hücum etməyəcəyinə necə əmin ola bilərik?

***Taker Karlson: İsrailin sizə sui-qəsd cəhdinə inanırsınızmı?***

Məsud Pezeşkian: Bəli, məni öldürməyə cəhd etdilər. Onlar bunun əsasında hərəkət edib səylərini göstərdilər, amma sonuc nəticəsiz qaldı. Allahın qüdrətinə inanan biri kimi inanıram ki, kiminsə ölüm və ya həyat vaxtını təyin edən yalnız Allahın iradəsidir. Əgər Allah istəsə, kimsə küçədə də canını tapşıra bilər. Demək istəyirəm ki, bu yolda canımı qurban verməkdən qorxmuram. Mən öz ölkəmi, azadlığımı, müstəqilliyimi müdafiə etməkdən qorxmuram. Mən canımı qurban verməyə hazıram və burada heç kim məni bu yoldan döndərə bilməz. Heç bir məmurumuz müdafiədə canını verməkdən qorxmur.

***Taker Karlson: Bəs bu, regiona təhlükəsizliyi qaytaracaqmı? Demək istədiyim odur ki, terror, qan, qətl sülh gətirirmi? Hörmətlə, mənə deyə bilərsinizmi ki, sui-qəsdin hədəfi olduğunuza necə əminsiniz? Düşünmürəm ki, bu, heç bir yerdə təsdiqini tapmayıb. Buna necə əminsiniz?***

Məsud Pezeşkian: Təbii ki, sui-qəsdin arxasında ABŞ yox, İsrail dayanırdı. Mən vacib bir görüşdə idim. Qarşıdakı yolları müzakirə edirdik. İsrail casusları vasitəsilə əldə etdiyi məlumatlar sayəsində həmin bölgəni bombalamağa çalışıb. Amma dediyim kimi, ölüm vaxtını təyin edən Allahın iradəsidir. Və bir daha vurğulayıram ki, biz şəhidlikdən, fədakarlıqdan qorxmuruq. **İsrailin bu həmləsinin və açıq-aşkar təcavüzünün bir nəticəsi oldu: İran xalqının misilsiz həmrəyliyi**. İran xalqı dünyanın harasında olursa olsun, öz ölkəsinin suverenliyinə və ərazi bütövlüyünə sadiqdir. Bu təcavüz bizi daha da birləşdirdi. ABŞ-a təklifim odur ki, ona aid olmayan bu müharibəyə girməkdən tamamilə çəkinsin. Bu Amerikanın müharibəsi deyil, Netanyahunun müharibəsidir. Onun yalnız regionda qeyri-sabitliyə gətirib çıxaracaq planları var. Netanyahu sonsuz müharibələr axtarır.

***Taker Karlson: Amerikalıların çoxu İrandan qorxur. Siz deyirsiniz ki, qorxmursunuz, amma onlar qorxurlar. Onlar [amerikalılar] İranın ABŞ-a nüvə silahı ilə hücum edəcəyinə inanırlar. Onlar iranlıların "Amerikaya ölüm" şüarları səsləndirdiyi videoları görürlər. Siz nə düşünürsünüz? Biz İrandan qorxmalıyıq?***

Məsud Pezeşkian: Bu, tamamilə yanlış təsəvvürdür. İran son 200 ildə heç bir ölkəyə hücum etməyib. Bizimkilər "Amerikaya ölüm" deyəndə nə xalqı, nə də hakimiyyəti nəzərdə tutmurlar. Onlar müdaxiləçi siyasətə, cinayətə, qeyri-sabitliyə və müharibəyə ölüm deyirlər. Siz heç iranlının amerikalı öldürdüyünü görmüsünüzmü? İrandan olan bir terrorçu nə vaxtsa ABŞ-da hücum həyata keçiribmi? Heç vaxt. Əslində sizin öz prezidentiniz deyib ki, Amerika İŞİD-i yaradıb. Biz insanlara ölüm demirik; zülmə, təcavüzə, alçaldılmaya və cinayətdə şərik olan hər kəsə ölüm deyirik.

***Taker Karlson: İki iranlı ayətullah Donald Trampa qarşı fitva verib. Bu, tam olaraq nə deməkdir və bu barədə nə düşünürsünüz? Bəs İran heç Trampa sui-qəsd cəhdi edibmi?***

Məsud Pezeşkian: Bildiyimə görə, nə Donald Trampa, nə də başqalarına qarşı heç bir fətva və ya hökm verilməyib. Məsələ konkret bir şəxsə deyil, dini müqəddəsliklərə açıq-aşkar təhqirə cavab idi. Bu fətva heç bir halda təhlükə hesab edilməməlidir. Xeyr, İran heç vaxt Trampın öldürülməsini dəstəkləməyib. Netanyahu bunu təlqin etməyə çalışır.

***Taker Karlson: ABŞ-da çoxlu iranlı yaşayır. Bəziləri deyir ki, onlar "yatmış mərkəzlər" və ya terrorçudurlar. Siz hazırda ABŞ-da yaşayan iranlılara zorakılığa əl atmayın mesajı verirsiniz?***

Məsud Pezeşkian: İlk dəfədir ki, belə sözləri eşidirəm. İranlılar elmləri, ədəbiyyatları və sivilizasiyaları ilə tanınırlar. Onlardan hər hansı zorakı davranış görmüsünüzmü? Bu, İsrailin sizin beyninizə yerləşdirməyə çalışdığı obrazdır. Onlar qorxu yaratmaqla ABŞ-ı müharibəyə cəlb etmək istəyirlər. Amma bu, Amerikanın marağında deyil.

***Taker Karlson: İranın bir vaxtlar İsraillə iqtisadi əlaqələri olub. Bu münasibətləri dəyişən nə oldu? Bu münasibətləri kim və niyə dəyişdi?***

Məsud Pezeşkian: Bu dəyişikliyə görə məsuliyyət İsrailin üzərinə düşür. Netanyahunun son illərdə Fələstində, xüsusən də Qəzzada törətdiyi cinayətlərə nəzər saldıqda cavab aydın olur. Günahsız qadın və uşaqları öldürmək, məktəbləri, xəstəxanaları və yaşayış məntəqələrini bombalamaq – bütün bunlar soyqırımdan başqa bir şey deyil. Hətta ərzaq və dərmanların ölkəyə girişini də dayandırıblar. Bu davranış millətimin və regionun İsrailə münasibətini kökündən dəyişdi. Biz İsraildən heç vaxt silah almamışıq. Biz o vaxt da müharibə istəmirdik, amma müharibə bizim boynumuza qoyuldu.

***Taker Karlson: ABŞ-la diplomatik danışıqlar bitdikdən sonra Amerika şirkətlərinin yenidən İrana sərmayə qoyacağı, sanksiyaların götürüləcəyi və sülhün bərqərar olacağı dünyanı təsəvvür edə bilərsinizmi? Sizin məqsədiniz bu deyilmi?***

Məsud Pezeşkian: Administrasiyamı formalaşdırdığım ilk günlərindən mən ilk növbədə İran xalqı arasında daha böyük daxili həmrəylik və birlik yaratmağa çalışdım. Sonra qonşularımızla daha yaxşı münasibət qurmağa çalışdıq. Bundan sonra İranın Ali Rəhbəri Ayətullah Xamenei Həzrətləri ilə söhbətim oldu. O vurğuladı ki, amerikalı sərmayəçilərin İranda olması ilə bağlı heç bir məhdudiyyət yoxdur, hətta hazırda belə. Onların İrana daxil olmasına heç nə mane olmayıb və olmur. Bu, İranın Ali Rəhbərinin inamıdır.

Amma dediyim kimi, bölgədə sülh və əmin-amanlığın bərqərar olmasını istəməyən İsraildir. İsrail bölgəmizdə heç nəyin yaxşı getməsini istəmir. Və bir daha təkrar edirəm ki, Birləşmiş Ştatların Prezidenti cənab **Tramp regionu sülhə və parlaq gələcəyə aparmağa, ya da onun bataqlığa və sonsuz müharibəyə yuvarlanmasına imkan verməyə kifayət qədər qadirdir**. Bu, yalnız ABŞ prezidentinin etməli olduğu seçimdir.

Dediyim kimi, Amerika investorlarının geniş kommersiya, sənaye və iqtisadi fəaliyyətinə heç bir maneə yoxdur. Və hər hansı məhdudiyyətlər varsa, onlar ABŞ-ın özünün tətbiq etdiyi sanksiyalarla bağlıdır.

***Taker Karlson: Əgər daha genişmiqyaslı müharibə başlayarsa, İran müttəfiqləri olan Rusiya və Çindən hərbi və ya iqtisadi yardım gözləyə bilərmi?***

Məsud Pezeşkian: Bizim tərəfdən yox! Biz həmişə Allaha güvənmişik və inanacağıq. Özümüzü müdafiə etmək üçün kifayət qədər gücümüz var. Biz öz ayaqlarımız üzərində dayanıb ölkəmizi, ərazi bütövlüyümüzü qanımızın son damlasına qədər müdafiə edə bilərik.

Dəfələrlə dediyim kimi, **biz müharibə istəmirik və nüvə silahı yaratmaq niyyətimiz yoxdur**. Biz adımızdan yaradılan bu görüntü tamamilə yalan və saxta bir görüntüdür; bu, Netanyahu və işğalçı İsrail rejiminin irəli sürdüyü sui-qəsd və intriqaların nəticəsidir və onların müharibəni qızışdıran siyasətlərinin nəticəsidir.

ABŞ prezidenti bilməlidir ki, növbəti müharibə Yaxın Şərqdə daha çox qeyri-sabitliyə və iğtişaşlara səbəb olacaq. Və bu, ABŞ-ın və ya onun prezidentinin maraqlarına uyğun olmayacaq.

Bunun əvəzinə onlar sülh və əmin-amanlıq yolunu, mənim, hökumətimin, xalqımın həmişə getdiyi yolu seçməlidirlər. Və dediyim kimi, ABŞ prezidenti İsrail və Netanyahunu cilovlamaq, müharibə və qan tökmək əvəzinə bölgəyə sülh və əmin-amanlıq gətirəcək qədər güclüdür.

***Taker Karlson: Cənab Prezident, vaxt ayırdığınız və perspektivinizi izah etdiyiniz üçün çox sağ olun.***

Məsud Pezeşkian: Beynimdə və ürəyimdə baş verənləri sizinlə bölüşmək üçün mənə bu dəyərli fürsəti verdiyiniz üçün sizə səmimi qəlbdən təşəkkür edirəm. Mən dərindən ümid edirəm ki, təkcə ABŞ xalqı və rəsmiləri üçün deyil, bütün dünya və xüsusən də regionumuzun insanları üçün davamlı sülh və əmin-amanlıq bərqərar olacaq. Sağ olun.

***Müsahibənin tam mətni bu videoklipdə:***
https://x.com/TuckerCarlson/status/1942192178467332497